AZƏRBAYCAN RESPUBLİKASININ

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 333**

**Bakı şəhəri, 30 iyul 2019-cu il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 31 oktyabr tarixli 177 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə bəzi ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nda dəyişiklik edilməsi barədə**

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanına əsasən, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 31 oktyabr tarixli 177 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 10, maddə 976; 2014, № 4, maddə 446; 2015, № 3, maddə 325; 2017, № 4, maddə 620, № 7, maddə 1500; 2018, № 11, maddə 2452; 2019, № 2, maddə 343) ilə təsdiq edilmiş "Ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə bəzi ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"nın "Magistratura səviyyəsi üzrə" bölməsinə "XTM060009 İnformasiya-təhlil fəaliyyəti" sətrindən sonra "XTM060010 Sərhəd təhlükəsizliyi və idarəetmə" sətri əlavə edilsin.

**Azərbaycan Respublikasının**
**Baş Naziri** **Novruz Məmmədov**

Xalq qəzeti.- 2019.- 1 avqust.- S.8.